# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 fevral tarixli 112 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "8711 10 000 0" alt yarımmövqeyinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8711 10 000 | – – mühərrikinin silindrlərinin işçi həcmi 50 $sm^3$-dən çox olmayan porşenli daxiliyanma mühərrikli: | | |
| 8711 10 000 1 | – – – konstruksiyası ilə (və ya texniki göstəriciləri ilə) müəyyən olunan maksimal sürəti saatda 50 km-dən çox olan | əd | 15 |
| 8711 10 000 9 | – – – digərləri | əd | 15 |

1.2. “8711 60 900 0” alt yarımmövqeyinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8711 60 900 | – – digərləri: | | |
| 8711 60 900 1 | – – – konstruksiyası ilə (və ya texniki göstəriciləri ilə) müəyyən olunan maksimal sürəti saatda 50 km-dən çox olan | əd | 15 |
| 8711 60 900 9 | – – – digərləri | əd | 15 |

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 17 aprel 2024-cü il

№ 213